UOT 339.976

# AVROPA İTTİFAQI VƏ POST-SOVET ÖLKƏLƏRİ ARASINDA MÜNASİBƏTLƏRDƏ YENİ ƏMƏKDAŞLIQ FORMULASI AXTARIŞI

**Bayramov Şahin Vaqif oğlu***
Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı

**Xülasə**

Məqalə post-sovet ölkələri ilə Avropa İttifaqı arasında mövcud və perspektiv əməkdaşlıq formulalarının araşdırılmasına həsr olunmuşdur. Tərəfdaşlıq və Əməkdaşlıq Sazişləri araşdırılan region ölkələri ilə Avropa İttifaqı arasındakı münasibətlərin yaradılmasının və inkişaf etdirilməsinin ilkin əsası kimi nəzərdən keçirilmişdir. Eyni zamanda, Avropa Qonşuluq Siyasəti sözügedən əməkdaşlığın yeni və daha sistemli elementi kimi izah olunmuşdur.

Məqalədə Avropa Komissiyasının və digər Avropa İttifaqı qurumlarının müvafiq sənədləri əsasında Avropa İttifaqının Cənubi Qafqaz, Mərkəzi Asiya, Şərqi Avropa ölkələrinə və Rusiyaya yönəlmiş geo-iqtisadi siyasəti geniş təhlil olunmuşdur.

Aİ-nin genişlənməsi və bu prosesin davam etməsi perspektivləri kontekstində Avropa İttifaqı ilə araşdırılan region ölkələri arasında əməkdaşlığın inkişaf etdirilməsinə dair bir sıra konkret təkliflər irəli sürülmüşdür.

**Açar sözlər:** *Avropa İttifaqı, Avropa Qonşuluq Siyasəti, Şərq Tərəfdaşlığı, post-sovet ölkələri.*

## Giriş

Hazırda bütün post-sovet ölkələrinin xarici iqtisadi strategiyasında Avropa İttifaqı (Aİ) ilə hərtərəfli iqtisadi əməkdaşlığın yaradılması və inkişaf etdirilməsi prioritet istiqamət kimi çıxış edir. Bütün oxşar cəhətlərinə baxmayaraq, bu ölkələrin Aİ ilə münasibətləri və onların bu münasibətlərdəki maraqları kifayət qədər müxtəlifdir. Şübhəsiz ki, bu müxtəliflik qeyd olunan ölkələrin geosiyasi və geoiqtisadi vəziyyəti, Aİ ilə əlaqələri inkişaf etdirməyə nə dərəcədə səy göstərmələri, eləcə də, onların spesifik sahəvi maraqları ilə şərtlənir.

Sözügedən ölkələrin hamısı Aİ proqramlarının və yardımlarının üstünlüklərindən faydalanma imkanının əldə olunmasına xüsusi əhəmiyyət verirlər. Aİ vəsaitləri bu ölkələrdə iqtisadi islahatların sürətləndirilməsinə, nəqliyyat və sərhəd infrastrukturunun inkişaf etdirilməsinə, ekoloji proqramların həyata keçirilməsinə və enerji istehlakı üzrə effektivliyin yüksəldilməsinə yönəldilir.

Avropa iqtisadi məkanının tərkib hissəsinə çevrilmək istəyən post-sovet ölkələri Aİ ilə

* Bakı, AZ 1000, Azərbaycan Dövlət İqtisad Universiteti, İstiqlaliyyət küç. 6
sh.bayramov@gmail.com



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

hərtərəfli əməkdaşlığı inkişaf etdirməklə yanaşı, bu kontekstdə daha effektiv əməkdaşlıq formulasının tapılmasına da xüsusi əhəmiyyət verirlər.

**Tərəfdaşlıq və Əməkdaşlıq Sazişləri**

Post-sovet məkanında olan keçid iqtisadiyyatlı ölkələr ilə Aİ arasında münasibətlər ikitərəfli əsasda 1990-cı illərdə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişləri (*TƏS*) çərçivəsində tənzimlənir. Aİ-nin təşəbbüsü olan bu sazişlər Rusiya (*müvafiq olaraq, 1994-cü ildə imzalanmış və 1997-ci ildə ratifikasiya edilmişdir*), Ukrayna (*1994 və 1998*), Moldova (*1994 və 1998*), Qazaxıstan (*1995 və 1999*), Qırğızıstan (*1995 və 1999*), Azərbaycan (*1996 və 1999*), Ermənistan (*1996 və 1999*), Gürcüstan (*1996 və 1999*) və Özbəkistan (*1996 və 1999*) ilə imzalanmış və ratifikasiya olunmuşdur.

Aİ ilə Tacikistan arasında müvafiq saziş 2004-cü ildə imzalanmışdır və hazırda sazişin Aİ üzvləri tərəfindən ratifikasiya olunması prosesi gedir. Bununla belə, Aİ ilə Tacikistan arasında ticarət münasibətlərini tənzimləyən Müvəqqəti Saziş 2005-ci ilin mayında qüvvəyə minmişdir.

Aİ ilə Belarus (1995) və Türkmənistan (1998) arasında imzalanmış müvafiq sazişlərin ratifikasiyası və qüvvəyə minməsi ilk növbədə siyasi amillərin təsiri nəticəsində bu vaxta qədər mümkün olmamışdır.

**Avropa Qonşuluq Siyasəti**

Avropa Qonşuluq Siyasəti (AQS) 2002-ci ildə formalaşdırılmış "Daha Geniş Avropa" konsepsiyası əsasında Aİ tərəfindən 2004-cü ildə təsdiq edilmişdir. AQS Aİ ilə onun Cənub və Şərq qonşuları arasında ikitərəfli əməkdaşlıq üçün hüquqi çərçivə müəyyən edir. AQS Aİ-yə üzvlük perspektivi ümumiyyətlə olmayan Azərbaycan, Ermənistan, Gürcüstan, Ukrayna, Moldova, Belarus, Əlcəzair, Misir, İsrail, İordaniya, Livan, Liviya, Mərakeş, Fələstin Muxtariyyəti, Suriya və Tunisi əhatə edir.

AQS-nin əsas məqsədi Aİ-nin qonşularında stabilləşmənin təmin edilməsindən, Avropada yeni bölüşdürücü xətlərin meydana gəlməsinin qarşısının alınmasından, qonşu ölkələrdə Avropa standartlarının və dəyərlərinin təşviq edilməsindən və dərin iqtisadi əməkdaşlığın yaradılmasından ibarətdir. Başqa sözlə, AQS üzvolma perspektivinin təqdim edilməməsini və tərəfdaş ölkələrə daha cəlbedici yeni əməkdaşlıq formulasının təklif edilməsini nəzərdə tutur.

Fəaliyyətə başladığı bir neçə il ərzində AQS üzrə bir sıra dəyişikliklər həyata keçirilmişdir. Belə ki, 2006-cı ilin dekabrında AQS-nin gücləndirilməsi məqsədilə Avropa Komissiyası tərəfindən təkliflər irəli sürülmüş və "Avropa Qonşuluq Siyasətinin Gücləndirilməsi" (*Strengthening European Neighbourhood Policy*) sənədi təqdim edilmişdir [1]. Bundan başqa, 2007-ci ildə Almaniya tərəfindən "AQS-plyus" konsepsiyası (*rəsmi şəkildə nəşr edilməyib*) irəli sürülmüşdür [2].

2007-ci ilin 5 dekabrında Avropa Komissiyası "Güclü Avropa Qonşuluq Siyasəti" (A Strong European Neighbourhood Policy) sənədini təqdim etmişdir [3]. Bu sənəd mövcud öhdəliklərin yerinə yetirilməsi məsələsinə daha çox diqqətin ayrılmasını nəzərdə tuturdu. Eyni zamanda, sözügedən sənəd differensiasiya prinsipini xüsusi vurğulamaqla, Aİ-nin tərəfdaş ölkələrlə münasibətlərinin həmin ölkələrin siyasi vəziyyətindən, Aİ ilə əlaqələrdə nə dərəcədə maraqlı olmasından, nəzərdə tutduqları islahatlardan və sosial-iqtisadi inkişaf səviyyəsindən birbaşa asılı olacaqdır.

İqtisadi əməkdaşlığın əsas aləti qismində mallar və xidmətlər üzrə ticarəti, eləcə də, milli qanunvericiliyin Aİ qanunvericiliyinə uyğunlaşdırılmasını əhatə edən azad ticarət sazişləri

çıxış edəcəkdir. Uzunmüddətli perspektivdə Aİ ilə AQS-yə daxil olan ölkələr arasında Qonşuluq İqtisadi İttifaqının (*Neighbourhood Economic Community*) yaradılması ehtimalı da istisna olunmur.

2008-ci ilin 18 fevralında Aİ Şurası özünün AQS-yə dair yekun xülasəsini qəbul etmişdir [4]. Bu sənəddə AQS ilə üzvolma arasında əlaqənin olmaması xüsusi vurğulanmış və Ümumdünya Ticarət Təşkilatına - ÜTT-yə üzv olan bütün ölkələr üçün açıq elan olunacaq "dərin və hərtərəfli azad ticarət zonası" müəyyən edilmişdir. Bundan əlavə, sözügedən sənəddə fərdlər arasında əlaqələrin (*people-to-people contacts*) genişləndirilməsi, AQS üzrə tərəfdaş ölkələr üçün viza rejiminin asanlaşdırılması və bu ölkələr arasında regional əməkdaşlığın inkişaf etdirilməsi zəruriliyi bəyan edilmişdir.

Aİ tərəfindən MDB ölkələrinə göstərilən dəstəyin əsas aləti olan TACIS proqramı çərçivəsində 1991-2006-cı illərdə bu ölkələrə 7.3 mlrd. avro vəsait ayrılmışdır. 2007-ci ilin 1 yanvar tarixindən etibarən maliyyə alətləri standart formaya salındı və AQS ölkələrini və Rusiyanı əhatə edən Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti (*ENPI*) təqdim edildi. Buna əlavə olaraq, daha qabaqcıl ölkələrdə aparıcı islahatların dəstəklənməsi məqsədi daşıyan İdarəetmə Bacarığı (*Governance Facility*) və beynəlxalq maliyyə institutlarının istiqrazlarına əlavə edilən Qonşuluq İnvestisya Fondu (Neighbourhood Investment Fund) kimi digər maliyyə alətləri də fəaliyyətə başlamışdır.

**Aİ-nin Cənubi Qafqaz siyasəti**

Cənubi Qafqaz ölkələri (Azərbaycan, Gürcüstan, Ermənistan) AQS-yə 2004-cü ilin iyununda daxil edilmişlər. Aİ tərəfindən Cənubi Qafqaz ölkələrinə edilən təklifin ümumi və fərqləndirici cəhəti sözügedən regiona yönəlmiş proqramlara inkişafa yardım elementinin daxil edilməsindən ibarətdir. 2007-2013-cü illərdə hər bir ölkə üzrə əməkdaşlığı əhatə edən Ölkə Strategiya Sənədləri (*Country Strategy Papers - CSP*) qəbul edilmişdir. CSP Aİ-nin yardımlarından istifadə edilməsi çərçivəsini müəyyən edən standart Aİ aləti qismində çıxış edir. Buna əlavə olaraq, 2007-2010-cu illəri əhatə edən və hər bir ölkə üzrə Aİ-nin yardım proqramlarının detallarını əks etdirən Milli İndikativ Proqramlar (*National Indicative Programmes - NIP*) da qəbul edilmişdir. Eyni zamanda, Cənubi Qafqaz ölkələri demokratikləşmə layihələrinin, qanunun aliliyinin və insan hüquqlarının dəstəklənməsi məqsədi daşıyan Demokratiya və İnsan Hüquqları üçün Avropa Aləti (*European Instrument for Democracy and Human Rights - EIDHR*) proqramında da iştirak edirlər.

Cənubi Qafqaz ölkələri ilə Aİ arasında imzalanmış TƏS-lər əməkdaşlığın aşağıdakı mexanizmlərini nəzərdə tutur: Əməkdaşlıq Şurası (illik iclaslar); Ticari, İqtisadi və Hüquqi məsələlər üzrə Alt-Komitə; Parlamentlərarası Əməkdaşlıq Komitəsi. 2006-cı ilin 16 noyabr tarixində hər üç ölkə ilə Aİ arasında beş illik AQS Fəaliyyət Planları razılaşdırılmışdır.

2003-cü ildə Aİ-nin Cənubi Qafqaz üzrə Xüsusi Nümayəndəsinin (mandatına regiondakı dondurulmuş münaqişələrin həllinə dəstək göstərilməsi daxildir) təyin olunması Aİ-nin regionda baş verən proseslərdə daha yaxından iştirak etmək niyyətində olmasının göstəricisi kimi qiymətləndirilə bilər.

Fəaliyyət Planına əsasən, Aİ-nin Azərbaycana münasibətdə prioritetləri kimi demokratikləşmənin, insan hüquqlarının, sosial-iqtisadi islahatların, yoxsulluğun ləğvinin və dondurulmuş münaqişənin həllinin dəstəklənməsini göstərmək olar. NIP-ə uyğun olaraq, Azərbaycan 2007-2010-cu illər ərzində 92 mln. avro həcmində Aİ yardımını qəbul edəcəkdir. Azərbaycan üzrə NIP-in əsas istiqamətləri aşağıdakı sferaları əhatə edir:

demokratikləşmə, qanunun aliliyi və əsas azadlıqlar; sosial-iqtisadi islahatlar və Azərbaycanın milli qanunvericiliyinin Aİ standartlarına uyğunlaşdırılması; enerji və nəqliyyat. 2007-ci ilin 7 noyabr tarixində Azərbaycanla Aİ arasında imzalanmış Anlaşma Memorandumu enerji sahəsində əməkdaşlıq mexanizminin yaradılmasını nəzərdə tutur.

Aİ-nin Ermənistana münasibətdə prioritetləri Azərbaycanla bağlı prioritetlərlə, əsasən, üzt-üstə düşür. NIP-ə uyğun olaraq, Ermənistan 2007-2010-cu illər ərzində 98 mln. avro həcmində Aİ yardımını qəbul edəcəkdir. Ermənistan üzrə NIP-in əsas istiqamətləri aşağıdakı sferaları əhatə edir: demokratik institutların təsis edilməsi və idarəetmənin təkmilləşdirilməsi; sosial-iqtisadi islahatlar; yoxsulluq.

Fəaliyyət Planına əsasən, Aİ-nin Gürcüstana münasibətdə prioritetləri kimi demokratikləşmənin, insan hüquqlarının, qanunun aliliyinin, sosial-iqtisadi islahatların, investisiya mühitinin təkmilləşdirilməsinin, yoxsulluğun ləğvinin, dondurulmuş münaqişələrin həllinin, daxili təhlükəsizliyin və regional əməkdaşlığın dəstəklənməsini göstərmək olar. NIP-ə uyğun olaraq, Gürcüstan 2007-2010-cu illər ərzində 120 mln. avro həcmində Aİ yardımını qəbul edəcəkdir. Gürcüstan üzrə NIP-in əsas istiqamətləri aşağıdakı sferaları əhatə edir: demokratikləşmə; iqtisadi inkişaf; Fəaliyyət Planının icrası; sosial-iqtisadi islahatlar və yoxsulluq; daxili münaqişələr.

**Aİ-nin Mərkəzi Asiya siyasəti**

Aİ Mərkəzi Asiya ölkərindəki bir çox spesifik problemlərin həllinin ikitərəfli münasibətlər vasitəsilə deyil, regional səviyyədə mümkün olması qənaətindədir. Bu yanaşma 2007-ci ilin iyununda qəbul olunmuş "Aİ və Mərkəzi Asiya: Yeni Əməkdaşlıq Strategiyası" sənədinin əsas xüsusiyyəti hesab oluna bilər [5]. Əsas məqsədi Aİ ilə sözügedən region arasında əməkdaşlığın gücləndirilməsindən ibarət olan strategiya aşağıdakı istiqamətləri əhatə edir: xarici işlər nazirləri səviyyəsində ardıcıl dialoqun bərqərar olması; regionda təhsil sistemlərinin inkişafına yönəlmiş "Avropa Təhsil Təşəbbüsü"nün reallaşdırılması; "Qanunun Aliliyi üzrə Aİ Təşəbbüsü"nün yaradılması; enerji məsələləri üzrə davamlı dialoqun aparılması.

Aİ-nin Mərkəzi Asiya regionunda fəaliyyətinin genişləndirilməsi bir çox amillərin qəbul edilməsi ilə şərtlənir: regiondan kənara yayıla biləcək təhlükələr (mütəşəkkil cinayətkarlıq, narkotik ticarəti, terrorizm); enerji ehtiyatları üzrə təchizatın və tranzit xətlərinin diversifikasiyası üçün axtarışların davam etdirilməsi; Minilliyin İnkişaf Məqsədlərinin (*Millennium Development Goals*) stimullaşdırılması; Cənubi Qafqaz ölkələrinin AQS-yə daxil edilməsi ilə Aİ-nin coğrafi baxımdan Mərkəzi Asiyaya "yaxınlaşması". Araşdırılan regionla Ümumi Xarici və Təhlükəsizlik Siyasəti (*Common Foreign and Security Policy*) sahəsində əməkdaşlığın genişləndirilməsi məqsədilə 2005-ci ildə Aİ-nin Mərkəzi Asiya üzrə Xüsusi nümayəndəsi təyin olunmuşdur.

Yuxarıda qeyd olunan təşəbbüslərlə yanaşı, Avropa Komissiyası tərəfindən Mərkəzi Asiya üzrə Aİ Regional Strategiya Sənədi 2007-2013 (*EC Regional Strategy Paper for Central Asia 2007-2013*) və 2007-2010-cu illər üzrə Mərkəzi Asiya İndikativ Proqramı (*Central Asia Indicative Programme*) hazırlanmışdır [6]. Bu məqsədlərin yerinə yetirilməsi üçün ayrılmış 719 mln. avro məbləğində vəsaitin (*altı illik dövr üzrə*) 2006-cı ildə Aİ-nin inkişafa yardım üzrə maliyyə aləti kimi yaradılmış İnkişaf üçün Əməkdaşlıq Aləti (*Development Cooperation Instrument*) vasitəsilə çatdırılması nəzərdə tutulmuşdur. Qeyd olunan proqramların prioritetləri qismində regional əməkdaşlıq və xoşməramlı münasibətlər (*büdcənin 30-35%-i)*, yoxsul-

luğun azaldılması və həyat standartlarının yüksəldilməsi (*40-45%*), effektiv idarəetmənin və iqtisadi islahatların stimullaşdırılması (*20-25%*) çıxış edir. Ayrılmış ümümi vəsaitin 70%-nin ikitərəfli proqramların yerinə yetirilməsinə yönəldilməsi nəzərdə tutulmuşdur.

Aİ-nin Qazaxıstan üzrə dəstəyi ilk növbədə siyasi, iqtisadi, hüquqi və sosial islahatların sürətləndirilməsinə, eləcə də, infrastrukturun və enerji sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə yönələcəkdir. 2006-cı ilin noyabrında Qazaxıstanla Aİ arasında enerji sahəsində əməkdaşlıq üzrə Anlaşma Memorandumu imzalanmışdır.

Aİ-nin Qırğızıstana münasibətdə prioritetləri kimi kənd yerlərinin inkişafını, yoxsulluğun azaldılmasını, sosial, siyasi və bazar islahatlarının stimullaşdırılmasını və enerji sahəsi üzrə qanunvericiliyin təkmilləşdirilməsini xüsusi qeyd etmək lazımdır.

Aİ-nin Tacikistanda əsasən aqrar sektorun inkişafını, effektiv idarəetmə sisteminin yaradılmasını, iqtisadi islahatların aparılmasını və yoxsulluğun azaldılmasını dəstəkləməsi nəzərdə tutulmuşdur.

Aİ-nin Özbəkistana münasibətdə perspektiv prioritetləri kimi demokratikləşmənin, insan hüquqlarının, vətəndaş cəmiyyətinin, qanunun aliliyinin, hüquqi islahatların və regional inkişafın dəstəklənməsini göstərmək olar.

Hazırda ikitərəfli əməkdaşlığın çox zəif olduğu Türkmənistana münasibətdə Aİ-nin gələcək prioritetləri kimi iqtisadi və bazar islahatlarının aparılmasına (xüsusilə, enerji sahəsində), demokratik təsisatların yaradılmasına və kənd təsərrüfatının inkişafına yardım göstərilməsi bəyan edilmişdir.

**Qara dəniz Sinerji (*The Black Sea Synergy*)**

2007-ci ildə Aİ-nin təşəbbüsü ilə yaradılmış Qara dəniz Sinerji layihəsi Aİ və onun Şərq qonşuları arasında ikitərəfli əməkdaşlıq formalarına əlavə edilən çoxtərəfli əməkdaşlıq forması kimi qiymətləndirilir [7]. Bu layihə Rumıniya və Bolqarıstanın üzv olması ilə Aİ-nin regiondakı maraqlarının artmasından sonra meydana gəlmişdir. Aİ ilə araşdırılan region arasında əməkdaşlıq üçün başqa bir çoxtərəfli forum kimi Qara dəniz İqtisadi Əməkdaşlığını (*Black Sea Economic Cooperation - BSEC*) qeyd etmək lazımdır.

Qara dəniz Sinerji layihəsi Azərbaycan, Gürcüstan, Ermənistan, Bolqarıstan, Yunanıstan, Moldova, Rusiya, Rumıniya, Türkiyə, Ukrayna və Aİ üçlüyünü (*EU Troika*) əhatə edir. AQS-nin hüquqi çərçivəsini aşan bu layihə müəyyən dərəcədə Şimal Ölçüsü layihəsinin (*Northern Dimension project*) analoqu hesab oluna bilər.

Layihəyə daxil olan ölkələrin xarici işlər nazirləri arasında ilk görüş 2008-ci ilin fevralında Kiyevdə keçirilmişdir. Görüşün nəticəsi olaraq qəbul olunmuş birgə bəyanatda Qara dəniz Sinerji layihəsinin əsas məqsədinin həm Qara dəniz regionu daxilində, həm də adı çəkilən regionla Aİ arasında əməkdaşlığın genişləndirilməsindən ibarət olması vurğulanmışdır [8]. Eyni zamanda, prioritet təşkil edən əməkdaşlıq sahələri kimi nəqliyyat, enerji və tranzit infrastrukturunun inkişaf etdirilməsi göstərilmişdir.

**Aİ-nin sektoral siyasəti**

Keçmiş SSRİ məkanında olan ölkələrlə Aİ arasında əməkdaşlığı araşdıran əksəriyyət tədqiqatçılar Aİ-nin sözügedən region üzrə siyasətində enerji sektorunun daha mühüm əhəmiyyətə malik olması arqumentini əsaslandırırlar. Təsadüfi deyildir ki, Aİ artıq Azərbaycan, Qazaxıstan və Ukrayna ilə enerji əməkdaşlığına dair Anlaşma Memorandumu imzalamışdır. Mərkəzi Asiya, Xəzər və Qara dəniz hövzəsi ölkələrini əhatə Bakı Prosesinin (*Baku Process*) əsas məqsədi enerji təhlükəsizliyi sahəsində əməkdaşlığın genişləndiril-

məsindən və Aİ-nin region ölkələrinin enerji bazarlarına inteqrasiyasını dərinləşdirməkdən ibarətdir.

Aİ-nin Şərq qonşuları üzrə enerji siyasətinin tərkib hissəsi olaraq, Ukrayna və Moldovanın Avropa Enerji Birliyinə (*European Energy Community*) qoşulmağa dəvət olunmasını xüsusi vurğulamaq lazımdır. Qeyd edək ki, 2005-ci ildə yaradılmış Avropa Enerji Birliyinin əsas məqsədi Aİ-nin, Qərbi Balkan ölkələrinin, eləcə də, Türkiyə və Norveçin qaz və elektrik enerjisi bazarının birləşdirilməsindən ibarətdir.

Aİ ilə araşdırılan region arasında əməkdaşlığın digər mühüm sahəsi kimi nəqliyyat sektorunu göstərmək olar. Belə ki, Aİ MDB ölkələrini, xüsusilə də, Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrini Avropanı Şərqi və Cənubi Asiya ilə birləşdirən strateji əhəmiyyətli nəqliyyat dəhlizi hesab edir. Bu məqsədlə, 1990-cı illərdə Aİ tərəfindən INOGATE (*Avropaya Ölkələrarası Neft və Qaz Nəqli – Interstate Oil and Gas Transport to Europe*) və TRACECA (*Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi – Transport Corridor Europe-Caucasus-Asia*) kimi layihələr irəli sürülmüş və onların reallaşdırılmasına başlanmışdır. INOGATE layihəsinin əsas məqsədi boru kəmərləri sistemlərinin regional inteqrasiyasını genişləndirməkdən və neft-qaz ehtiyatlarının Avropa bazarlarına nəql edilməsinin asanlaşdırılmasından ibarətdir. TRACECA layihəsi isə nəqliyyat dəhlizinin yaradılması, lokal bazarların inteqrasiyasının gücləndirilməsi və infrastrukturun inkişaf etdirilməsi məqsədlərinə xidmət edir.

**Aİ üçün mühüm dilemmalar**

Bütün tədqiqatçılar tərəfindən qəbul olunan arqument ondan ibarətdir ki, birmənalı çağırış qismində qonşu ölkələrin maraqları və gözləntiləri ilə Aİ-nin müvafiq maraqları və imkanlarının uyğunlaşdırılması cəhdləri çıxış edir. Qonşu ölkələr arasında mövcud olan müxtəlifliyi nəzərə alaraq, qarşılıqlı münasibətlərin tənzimlənməsində bir sıra ümumi problemləri göstərmək olar.

AQS-yə daxil olan ölkələrə münasibətdə Aİ-nin əsas məqsədi həmin ölkələri Avropa standartlarına daha yaxın edəcək iqtisadi və siyasi islahatların aparılması üçün kifayət qədər yüksək cəlbediciliyə malik əməkdaşlıq təklifinin hazırlanmasından ibarətdir. Lakin Aİ tərəfindən tərəfdaş ölkələrə üzvolma perspektivinin vəd edilməməsi və ya bunun üçün lazımi siyasi iradənin olmaması sözügedən təklifin əhəmiyyətini aşağı salan mühüm problem kimi çıxış edir.

Rusiyaya münasibətdə isə, Aİ ilk növbədə bu ölkənin vahid Avropa məkanına konstruktiv şəkildə qoşulmasına imkan verəcək əməkdaşlıq modelinin yaradılmasına səy göstərir. Lakin, Aİ - Rusiya münasibətlərində (xüsusilə enerji sahəsində) qeyri-simmetrik qarşılıqlı səmərənin olması və Rusiyanın "Avropalaşma" (*Europeanisation*) siyasətinin həyata keçirilməsinə çox az maraq göstərməsi əməkdaşlığın dərinləşdirilməsinə maneçilik törədən əsas amillər hesab olunur.

Mərkəzi Asiya ölkələrinə münasibətdə Aİ-nin əsas məqsədi adı çəkilən regionla ilk növbədə enerji sahəsində əməkdaşlığın dərinləşdirilməsindən ibarətdir. Bununla belə, region ölkələrində əsas Avropa dəyərləri olan demokratiya və insan hüquqları sahəsində vəziyyətin yaxşılaşdırılması istiqamətində atılan addımların lazımi səviyyədə olmaması bərabər səviyyəli əməkdaşlığa mane olur.

Ümumiyyətlə, Aİ ilə keçmiş SSRİ məkanında olan ölkələr arasında münasibətlərə mənfi təsir göstərən problemlərin səbəbləri həm Aİ-dən, həm də tərəfdaş ölkələrdən qaynaqlanır.

**Şərq qonşuları tərəfindən meydana çıxan problemlər**

Qeyri-real və ya qeyri-müəyyən gözləntilər. Aİ üzvlərinin mövqeyindən və özlərinin

apardıqları islahatlardan asılı olmayaraq, araşdırılan ölkələrin bəziləri Aİ tərəfindən onların yaxın gələcəkdə üzv olmasını nəzərdə tutan aydın və dəqiq qrafikə malik olan planın hazırlanmasını israr edirlər. Bəzi ölkələr Aİ tərəfindən enerji sektorunda qeyri-simmetrik münasibətlərin qəbul olunmasını, digərləri isə Aİ-nin maliyyə yardımlarının heç bir siyasi öhdəlik irəli sürülmədən təqdim olunmasını istəyirlər. Bundan başqa, bəzi ölkələrin Aİ ilə münasibətlərə dair aydın mövqe bildirməməsi onların konkret məqsədlərinin müəyyənləşdirilməsini çətinləşdirir.

Aİ ilə münasibətlərdən siyasi qazanc üçün istifadə edilməsi. Regionun bir çox hökumətləri və siyasi qrupları Aİ ilə münasibətlərin inkişaf etdirilməsinə ölkədaxili proseslərdə (*daxili siyasi mübarizədə qalib gəlmək*) və ya xarici əlaqələrdə (*qonşularla münasibətlərdə və regionda öz mövqelərini gücləndirmək*) hər hansı səmərə əldə edilməsinə yardımçı olan vasitə kimi yanaşırlar.

Daha dərin islahatların həyata keçirilməsinə az meyl göstərilməsi. Regionun bir çox ölkələri Avropa standartlarına uyğunlaşmanı bəyanatlar verilməsi ilə məhdudlaşdırır (*əvvəllər razılaşdırılmış hüquqi və institusional dəyişikliklərin praktiki baxımdan çox zəif aparılması*) və ya ölkə üzrə spesifik olan dəyərləri (*xüsusilə, siyasi sferada*) daha üstün tutmaqla Avropa dəyərlərindən imtina edirlər.

Passiv yanaşma. Şərq qonşularının əksəriyyəti tərəfindən Aİ-yə münasibətdə "cavab siyasəti" qəbul edilmişdir. Belə ki, sözügedən ölkələr ancaq Aİ-nin təşəbbüslərinə cavab verirlər (və ya vermirlər) və heç vaxt özləri hər hansı bir təşəbbüslə çıxış etmirlər. Bir qayda olaraq, həmin ölkələr, mövcud problemlərin mümkün həllərinə dair öz ideyalarını və ya təkliflərini təqdim etmirlər. Bundan əlavə, araşdırılan ölkələrin Aİ yardımlarının passiv qəbuledicisi qismində çıxış etmələri Aİ ilə region ölkələri arasında qarşılıqlı münasibətlərin qeyri-simmetrik xarakterinin dərinləşməsinə səbəb olur.

Qeyri-səmərəli idarəetmə. Xüsusi qeyd edilməlidir ki, hətta islahatların aparılması və Aİ ilə münasibətlərin inkişaf etdirilməsi üzrə siyasi iradə olduqda belə, sözügedən ölkələrin bir çoxunda qeyri-səmərəli idarəetmə mexanizmlərindən istifadə olunması Aİ ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən tədbirlərin effektivliyinin aşağı olmasını şərtləndirir.

**Aİ tərəfindən meydana çıxan problemlər**

Konsensusun olmaması. Aİ tərəfindən irəli sürülən bir çox layihələrin həyata keçirilməsində əsas problem qismində üzv ölkələr arasında konsensusun əldə olunmasının çətinliyi çıxış edir. Belə ki, üzv ölkələrin bəziləri Aİ ilə onun Şərq qonşuları arasında münasibətlərin inkişaf etdirilməsində məhdud maraqlara malikdirlər, bəziləri isə bu sahə üzrə təşəbbüslərin onların iqtisadi və siyasi maraqlarına qarşı yönəldiyini vurğulayırlar. Eyni zamanda, AQS-nin Şərq və Cənub istiqamətləri arasında obyektiv və subyektiv rəqabətin olması üzv ölkələr arasında fikir ayrılığının məntiqi nəticəsi kimi izah edilə bilər. Buna misal olaraq, 2006-cı ildə Almaniyanın AQS-nin Şərq istiqamətinə yönəlmiş təkliflərinin bütün AQS ölkələrini əhatə etməsinə dair Fransanın təkid etməsini göstərmək olar. Buna baxmayaraq, Fransa 2007-ci ildə Aralıq dənizi hövzəsi İttifaqının yaradılmasına razılıq vermiş və 2008-ci ildə Polşa-İsveç təşəbbüsü olan Şərq Tərəfdaşlığına dəstək vermişdir.

Az maraq göstərmə və zəif təsəvvür. Yuxarıda qeyd olunan konsensusun olmaması Şərq qonşuları ilə münasibətlərə dair ideyaların sistem halında birləşdirilməsinə imkan vermir. Belə ki, Aİ sözügedən ölkələrlə münasibətlər üzrə aydın və konkret hədəfləri olan modelə malik deyildir. Bəzi hallarda, təşəbbüslərin məhdudlaşdırılması və ya

dayandırılması Aİ-nin uzunmüddətli maraqlarına açıq şəkildə ziyan vurur (*Məsələn, 2007-ci ildə Fransanın AQS üzrə Şərq tərəfdaşları üçün viza qiymətlərinin aşağı salınmasına qarşı çıxış etməsi Şengen zonasının genişləndirilməsi məqsədinə mane kimi qiymətləndirilir*). Bunun nəticəsində, Aİ-nin qeyri-müəyyən və hədsiz ehtiyatlı təkliflər hazırlamaq vərdişi yaranmışdır ki, bu da mövcud ehtiyacların və çağırışların tələblərinə cavab verilməsinə kifayət etmir.

<u>Genişlənmə problemi.</u> Aİ-nin Şərq tərəfdaşlarına və xüsusilə də, AQS-nin aktiv iştirakçılarına dair siyasətinə təsir göstərən fundamental amil qismində "genişlənmə problemi" çıxış edir. Belə ki, öz ölkələrindəki ictimai rəyin təsiri nəticəsində Aİ üzvlərinin əksəriyyəti genişlənmə prosesinin davam etməsinə qarşı çıxırlar [9]. Bu məsələ Lüksemburq, Almaniya və Avstriyada özünü daha qabarıq şəkildə göstərir. Ayrı-ayrı Balkan ölkələrinin və Türkiyənin Aİ-yə üzv olmasının əleyhinə olanlar Lüksemburqda 47-69%, Almaniyada 52-69% və Avstriyada 59-81% təşkil etmişdir. Üzvolma perspektivinin təqdim olunmaması isə qonşu ölkələrlə Aİ arasında əməkdaşlığa ciddi mənfi təsir göstərir.

<u>İnstitusionallaşma prosesinin davam etməsi meylinin zəifliyi və vəsait çatışmazlığı.</u> Aİ-nin Şərq sərhədlərindən coğrafi baxımdan daha uzaq olan, eləcə də, Aİ büdcəsinin formalaşmasında daha çox paya malik olan üzv ölkələr Şərq tərəfdaşları ilə əməkdaşlıq üzrə yeni institutların yaradılmasına maraq göstərmirlər. Bu, AQS və Şərq tərəfdaşlarına yönəlmiş digər proqramların maliyyələşdirilməsinə meylin az olması ilə şərtlənir.

<u>Deklorativ yanaşma.</u> Aİ-nin bir çox məqsədləri və proqramları deklorativ xarakter daşıyır. Belə ki, müxtəlif proqramlara dair sənədlərin hazırlanmasına onların effektiv tətbiqinin təmin olunmasından daha çox diqqət yetirilir. Təcrübə göstərir ki, real olaraq əldə olunan nəticə rəsmi bəyan ediləndən əhəmiyyətli şəkildə geri qalır. Bir çox hallarda, hətta qeyri-məhsuldar və konkret nəticəsi olmayan danışıqların aparılması da əsas məqsəd kimi çıxış edir.

**Ümumi prinsiplər**

Maksimum yüksək səmərə əldə edilməsi üçün Aİ-nin Şərq qonşularına yönəlmiş siyasətinin bir sıra mühüm prinsiplərə əsaslanması çox vacibdir. Həmin prinsipləri aşağıdakı kimi qruplaşdırmaq olar:

<u>Diferensiasiya</u>. Artıq qeyd etdiyimiz kimi, araşdırılan regionda yerləşən ölkələr arasında əhəmiyyətli fərqlər vardır. Bu səbəbdən də, vacib və effektiv olan ümumi çərçivə və alətlərin mövcud olmasına baxmayaraq, Aİ-nin siyasəti hər bir tərəfdaş ölkədə həyata keçirilən islahatlar prosesi üzrə yanaşmaya, ehtiyaclara və proqresə əsaslanmalıdır. Fərdiləşmiş tərəfdaşlıq Aİ ilə region ölkələri arasındakı münasibətlərin əsasını təşkil etməlidir [10]. Buna görə də, həyata keçirilən siyasət Aİ-nin müxtəlif tərəfdaşlarla olan münasibətləri arasında süni əlaqənin meydana gəlməsinin qarşısını almalıdır. Lakin, bu, Aİ-nin tərəfdaşlar arasında horizontal və regional əməkdaşlığın inkişafını dəstəkləməkdən imtina etməsi anlamına gəlmir. Eyni zamanda, diferensiasiya təkcə coğrafi yerləşmə amilinə deyil, Aİ ilə əməkdaşlığa göstərilən maraq səviyyəsinə də əsaslanmalıdır. Bu yanaşma xüsusilə Şərq tərəfdaşlarına münasibətdə tətbiq edilməlidir.

<u>Açıq qapı.</u> Aİ tələblərinə cavab verən demokratik Avropa ölkələrinin quruma yeni üzv qəbul edilməsinə dair götürülmüş öhdəlik Aİ tərəfindən yenidən təsdiq edilməlidir. Bu, Aİ-nin yaradılması Sazişinin 49-cu maddəsində də vurğulanmışdır. Lakin, bu, hətta Kopenhagen meyarlarına cavab verən ölkələrin də Aİ-yə avtomatik şəkildə üzv qəbul edilməsini nəzərdə tutmur. Bununla belə, Şərq

qonşularına yönəlmiş AQS-nin açıq və qurtaran (*open-end*) xarakterinin saxlanılması və gücləndirilməsi vacibdir. Eyni zamanda, AQS tərəfdaş ölkələrin gələcəkdə Aİ üzvlüyü üçün müraciət edə bilmək səviyyəsinə yüksəldilməsinə xidmət edən alət kimi qiymətləndirilməlidir.

Birgə sahibolma. Aİ Şərq tərəfdaşlarının Aİ-nin mühüm agentliklərində və proqramlarında iştirak etməsinə maksimum şərait yaratmalıdır. Bu isə, qonşu ölkələrin Aİ-nin onlara yönəlmiş siyasətinin hazırlanmasında qismən iştirak etmələrinə imkan verəcəkdir. Başqa sözlə, Aİ Şərq tərəfdaşları tərəfindən təqdim olunan təkliflər üçün daha çox açıq olmalıdır.

Tamamlanma. Aİ tərəfindən həyata keçirilən siyasətin uğuru digər Avropa və regional qurumların (məsələn, NATO, ATƏT, Avropa Şurası, Qara dəniz ölkələri Şurası və s.) adekvat siyasətindən əhəmiyyətli dərəcədə asılıdır. Buna görə də, Şərq qonşularına yönəlmiş siyasət Aİ ilə müxtəlif beynəlxalq təşkilatlar arasında aparılan danışıqların əsas elementlərindən biri kimi çıxış edir.

Həyata keçirilmə məsələsinə daha çox diqqət yetirilməsi. Şərq qonşularına dair müxtəlif konsepsiyaların və sənədlərin hazırlanmasına, ikitərəfli və çoxtərəfli sazişlərin imzalanmasına əlavə olaraq, Aİ tərəfindən qarşılıqlı öhdəliklərin monitorinqinə və yerinə yetirilməsinə daha çox diqqət yetirilməlidir. Yerinə yetirilmə Aİ-nin Şərq tərəfdaşlarına yönəlmiş siyasətinin qiymətləndirilməsi zamanı əsas meyar kimi nəzərdən keçirilməlidir.

Məhdud şərtilik. “Daha çox nəticəyə can atanlara daha yüksək tələblər” prinsipinə sadiq qalmaqla, Aİ ayrı-ayrı ölkələrə münasibətdə irəli sürülən tələblərin diferensiasiyasını davam etdirməlidir. Buna əlavə olaraq, Avropa (müəyyən hüquqi və siyasi öhdəliklər götürmüşlər) və qeyri-Avropa (hüquqi və siyasi öhdəliklər yoxdur) ölkələrinin fərqli yanaşmaya malik olmaları təbiidir. Eyni zamanda, Aİ-nin Şərq tərəfdaşlarına yönəlmiş təklifləri siyasi dialoq və institusional inkişafın səviyyəsinə (demokratik prinsiplər və standartlara uyğunluq gözlənilməklə) uyğun olaraq fərqləndirilir. Lakin, bu şərtilik enerji və ya təhlükəsizlik kimi spesifik sahələr üzrə bəzi ölkələrlə (məsələn, Mərkəzi Asiya ölkələri ilə) əməkdaşlıq zamanı məhdudlaşdırıla bilər.

**Nəticə və təkliflər**

Apardığımız araşdırmanın nəticəsi olaraq, Aİ-nin Şərq qonşularına yönəlmiş siyasətinin təkmilləşdirilməsinə dair aşağıdakı təklifləri irəli sürmək olar:

Tərəfdaşlıq münasibətlərinin sistemləşdirilməsi. Aİ tərəfindən Şərq qonşularına yönəlmiş çoxtərəfli siyasətin strukturunun AQS-nin Şərq istiqamətinin inkişaf etdirilməsi yolu ilə tamamlanması məqsədəuyğundur. Bunun məntiqi nəticəsi kimi, Tərəfdaşlığın strukturu belə olmalıdır:

- Gücləndirilmiş Avropa Qonşuluq Siyasəti (GAQS) institusional (Fəaliyyət Planları və s.) və maliyyə (Avropa Qonşuluq Siyasəti Aləti və s.) alətlərindən istifadə etməklə, Aİ ilə onun qonşuları arasında münasibətləri tənzimləyən əsas çərçivə olaraq qalmalıdır. GAQS faktiki olaraq (formal olaraq deyil) Cənub Tərəfdaşlığı (Cənubi Aralıq dənizi Hövzəsi Tərəfdaşları) və Şərq Tərəfdaşlığı (AQS Şərq Tərəfdaşları) olmaqla iki istiqamətə ayrılmalıdır.
- Şərq Tərəfdaşlığı Ukraynaya xüsusi (assosiativ) statusun verilməsini nəzərdə tutmalıdır. Eyni zamanda, Ukraynaya üzvlük perspektivi təqdim olunmalı və bu ölkə ilə real Azad Ticarət Zonasının yaradılması başa çatdırılmalıdır.
- Avropa Qonşuluq Sazişinin imzalanması və real Azad Ticarət Zonasının yaradılması istiqamətində Moldova, Gürcüstan

və Azərbaycanla dərinləşdirilmiş ikitərəfli dialoq aparılmalıdır.

- Belarus və Ermənistanla ikitərəfli dialoqun dərinləşdirilməsi imkanları bir daha nəzərdən keçirilməlidir.
- Şərq Tərəfdaşlığı Rusiya ilə aparılan xüsusi dialoq (Yol Xəritəsi, TƏS-2, sektoral sazişlər və s.), eləcə də, beş Mərkəzi Asiya ölkəsi ilə aparılan institusional dialoqla paralel şəkildə reallaşdırılmalıdır.
- Aİ və AQS üzvü olmayan ölkələri də əhatə edən Şimal Ölçüsü (Northern Dimension) və Qara dəniz Sinerji (Black Sea Synergy) layihələri Şərq Tərəfdaşlığının əlavə regional istiqamətləri kimi nəzərdən keçirilməlidir.
- Bütün hallarda, regionun ayrı-ayrı ölkələri ilə Aİ arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verilməlidir.

<u>Çoxpilləli inteqrasiya.</u> Konkret mərhələlərdən ibarət olan inteqrasiya təqdim etməklə, üzv olan və üzv olmayan ölkələrin daha az fərqləndirilməsi vacibdir. Bu, Avropaya qovuşma istiqamətində daha real cəhdlər edən Şərq tərəfdaşlarına müsbət cavab verilməsini mümkün edəcəkdir. Metodlardan biri kimi, Aİ-nin layihələrində və institutlarında iştirak üçün müxtəlif imkanlar təqdim edən çoxsəviyyəli tərəfdaşlıq sisteminin və fərdi dialoqların yaradılması nəzərdən keçirilə bilər.

<u>Daha təsirli təkliflərin təqdim olunması.</u> Yuxarıda qeyd olunan mexanizmin fəaliyyətə başlaması, islahatların aparılması və Aİ standartlarına uyğunlaşmanın stimullaşdırılması üçün Aİ təşəbbüslərinin daha konkret məzmuna malik olması və tərəfdaşların gözləntilərini nəzərə alması çox vacibdir.

Xüsusilə, gələcəkdə Avropa Qonşuluq Birliyinin (*European Neighbourhood Community - ENC*) [11] yaradılmasına dair Avropa Komissiyası tərəfindən irəli sürülmüş təklifin daha konkret formaya salınması məqsədəuyğundur. Hesab edirik ki, təklifə yenidən baxılması və ENC-nin "Vahid Avropa Məkanı" (*Common European Area*) adlandırılması daha düzgün olardı. Belə ki, "Daha Geniş Avropa" (*Wider Europa*) konsepsiyasının orijinal ideyasına əsasən, tərəfdaş ölkələrə ümumi bazarın dörd əsas üstünlüyündən (malların, xidmətlərin, kapitalın və işçi qüvvəsinin sərbəst hərəkəti) faydalanmaq imkanı verilməli, onların Aİ institutlarında və Aİ qərarlarının qəbul edilməsində iştirakına şərait yaradılmalıdır.

Eyni zamanda, ENC-nin yaradılmasında əsas mərhələ hesab olunan "hərtərəfli azad ticarət zonası" üzrə Aİ təkliflərinin daha da konkretləşdirilməsi və reallaşdırılması vacibdir.

Tərəfdaş ölkələrin fikrinə görə, işçi qüvvəsinin hərəkətinin asanlaşdırılması (*viza prosedurlarının asanlaşdırılması da daxil olmaqla*) Aİ siyasətinin əsas elementlərindən biri kimi çıxış etməlidir. Belə ki, daha iri Şərq tərəfdaşlarına sadələşdirilmiş viza rejiminin (*daha ucuz viza tarifləri və s.*) və hətta bir sıra ölkələrə vizasız rejimin təqdim olunması üçün Aİ tərəfindən daha qəti addımlar atılmalıdır.

Buna əlavə olaraq, mobillik sahəsində əməkdaşlıq da əksər Şərq tərəfdaşları üçün mühüm əhəmiyyət kəsb edir. Bu, bir tərəfdən, bir çox Aİ ölkələrində işçi qüvvəsinə olan artan tələbatın ödənilməsində, digər tərəfdən isə, tərəfdaş ölkələrdən Aİ-yə olan miqrasiyanın leqallaşdırılmasında mühüm rol oynaya bilər. Bu baxımdan, gələcəkdə işçi qüvvəsinin real azad hərəkətinə nail olmaq üçün Aİ üzvləri ilə tərəfdaş ölkələr arasında əmək bazarlarına çıxışın tənzimlənməsi üzrə ikitərəfli və çoxtərəfli sazişlərin imzalanması məqsədəuyğun hesab olunur.

Nəhayət, Enerji Birliyində (*Energy Community*) iştirak üçün bir sıra tərəfdaş ölkələrə edilən təklif daha da konkret-

ləşdirilməlidir. Belə ki, bu təklif tərəfdaş ölkələr tərəfindən enerji sahəsində Aİ standart və prinsiplərinin qəbul edilməsi ilə yanaşı, Aİ-nin və ayrı-ayrı üzvlərin tərəfdaş ölkələrin enerji infrastrukturunun inkişafında yaxından iştirak etməsini nəzərdə tutmalıdır.

Daha elastik maliyyələşdirmə mexanizminin qəbul edilməsi. Şərq tərəfdaşları üçün məhdud vəsaitlərin ayrılması, eləcə də, əksər üzv ölkələrin həmin vəsaitlərin artırılmasının əleyhinə çıxış etməsi daha elastik maliyyələşdirmə mexanizminin qəbul edilməsini şərtləndirir. Bu zaman, Aİ büdcəsi ilə yanaşı Avropa maliyyə institutlarından da (*Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və s.*) vəsaitlərin cəlb olunmasına və spesifik layihələrin üzvlər və tərəfdaş ölkələr tərəfindən birgə maliyyələşdirilməsinə xüsusi diqqət yetirilməlidir.

Ümumiyyətlə, Aİ ilə onun Şərq tərəfdaşları arasında əlaqələrin inkişafını proqnozlaşdırmaq çox çətindir. Bu, tərəfdaş ölkələrdəki daxili sabitlik, Rusiyanın regiondakı siyasəti, üzv ölkələrdəki ictimai rəy, Aİ-nin genişləndirməni davam etdirmək siyasəti və s. amillərdən asılı olacaqdır. Sözügedən əməkdaşlığın gələcəyi qlobal proseslərin aparıcı iştirakçıları olan və araşdırılan regiona təsir etmək gücünə malik olan ABŞ və Çindən də asılı olacaqdır.

**İstifadə olunmuş ədəbiyyat**


1. Communication from the Commission to the Council and the European Parliament, “Strengthening European Neighbourhood Policy”, Brussels, December 4, 2006, COM (2006) 726 final, (http://ec.europa.eu/world/enp/pdf/com06_726_en.pdf). [Avropa Komissiyasının rəsmi internet səhifəsi].
2. Communication from the Commission, “A Strong European Neighbourhood Policy”, Brussels, December 5, 2007, COM (2007) 774 final, (http://ec.europa.eu/world/enp/pdf/com07_774_en.pdf). [Avropa Komissiyasının rəsmi internet səhifəsi].
3. Emerson, Michael and Popescu, Nicu (2007), “European Neighbourhood Policy Two Years On: Time Indeed for “ENP Plyus”, CEPS Policy Brief, No. 126, Brussels. [Emersen Maykl və Popesku Niku (2007) «Avropa qonşuluğu siyasətinin iki ili» Bryussel]
4. Council Conclusions on European Neighbourhood Policy, 2851st External Council Meeting, Brussels, February 18, 2008 (http://www.consilium.europa.eu/ueDocs/cms_Data/docs/pressData/en/gena/-98790.pdf). [Avropa İttifaqı Şurasının rəsmi internet səhifəsi].
5. “The EU and Central Asia: Strategy for a New Partnership”, Council of the European Union, Document 10113/07, Brussels, May 31, 2007, (http://consilium.europa.eu/uedocs/cms_data/librairie/PDF/EU_CtrlAsia_EN-RU.pdf). [Avropa İttifaqı Şurasının rəsmi internet səhifəsi].
6. Central Asia Indicative Programme, (http://ec.europa.eu/external_relations/ceeca/c_asia/). [Avropa Komissiyasının rəsmi internet səhifəsi].
7. Communication from the Commission to the Council and the European Parliament, “Black Sea Synergy – a new regional cooperation initiative”, Brussels, COM (2007) 160 final, April 11, 2007, (http://ec.europa.eu/world/enp/pdf/com07_160_en.pdf). [Avropa Komissiyasının rəsmi internet səhifəsi].
8. “A joint Statement by the Ministers of Foreign Affairs of the countries of the European Union and of the wider Black Sea area”, Kyiv, February 14, 2008, (http://ec.europa.eu/external_relations/blacksea/doc/joint_statement_blacksea_en.pdf). [Avropa Komissiyasının rəsmi internet səhifəsi].

9. “Special Eurobarometer 255 / Wave 65.2. Attitudes towards European Union Enlargement”, Brussels, July 2006, (http://ec.europa.eu/public_opinion/archives/ebs/ebs_255_en.pdf). [Avropa Komissiyasının rəsmi internet səhifəsi].
10. Communication from the Commission: “A Strong European Neighbourhood Policy”, Brussels, December 5, 2007, COM, (2007) 774 final, (http://ec.europa.eu/world/enp/pdf/com07_774_en.pdf). [Avropa Komissiyasının rəsmi internet səhifəsi].
11. “Expanding the proposals contained in the Communication to the European Parliament and the Council on Strengthening the ENP”. Com (2006) 726 final of 4 December 2006. “ENP – a path towards further economic integration”, (http://ec.europa.eu/world/enp/pdf/non-paper_economic-integration_en.pdf). [Avropa Komissiyasının rəsmi internet səhifəsi].

**Байрамов Шахин Вагиф оглы, диссертант**
Азербайджанский Государственный Экономический Университет

## Поиск новых формул сотрудничества в отношениях между Европейским Союзом и постсоветскими странами

### *Аннотация*

Статья посвящена текущим и перспективным формулам сотрудничества в отношениях между ЕС и постсоветскими странами. Соглашения по Партнерству и Сотрудничеству рассматриваются как предпосылка для создания и развития этих отношений. Одновременно, Европейская Политика Соседства рассматриваются как новый и более систематический этап в этих отношениях.

Политика ЕС по Южному Кавказу, Центральной Азии, Восточной Европе и России всесторонно анализирована на основе официальных данных Европейской Комиссии и других документов ЕС.

В статье анализированы текущие проблемы по дальнейшему расширению ЕС и предложены конкретные рекомендации по усовершенствованию отношений между ЕС и постсоветскими странами.

**Ключевые слова:** Европейский Союз, Европейская Политика Соседства, Восточное Партнерства, постсоветские страны.

Məqalə redaksiyaya daxil olmuşdur: 28.10.10.
Təkrar işləməyə göndərilmişdir: 05.11.10.
Çapa qəbul olunmuşdur: 22.12.10.